Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET



# Özünəməxsus dəsti-xətti olan şairə: Lilpar Cəmşidqızı



**Yaradıcılıq sahəsində o insan böyük uğur qazanır ki, öz yolu, özünəməxsus dəsti-xətti olur. Məhz bunun nəticəsidir ki, dahilərimiz - Əfzələddin Xəqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və onlarca başqaları bizim dövrümüzə qədər gəlib çıxıb və həmişə xalqın sevimlisi olublar. Onların hər birinin öz yolu, öz dəsti-xətti olub. Adi bir misal. Səməd Vurğunla Mikayıl Müşfiqin yaradıcılığında xalq üslubu nə qədər çox olsa da amma bu şairlərin yaradıcılığı bir-birinə oxşamır və hər ikisi xalq tərəfindən eyni sevgi ilə sevilir və qəbul olunur. Amma bu gün nədənsə şeir yazan şairlərin çoxunda bu yoxdur. Onları oxuduqca görürsən ki, ya özlərindən əvvəlki şairlərin yaradıcılığını təkrarlayır, ya da yazdıqları şeirləri, daha doğrusu cızmaqaraları bütövlükdə söz yığınıdır. Ən dəhşətlisi budur ki, 10 milyon bir xalqın ən azından 3-4 milyonu şeir yazır. Yəni bir çox insanlar şeir yazmağı o qədər adi bir iş kimi başa düşürlər ki, elə fikirləşirlər sözləri-sözlərə calamaq elə şeir deməkdir. Çünki onların çoxu özlərindən əvvəl yaşamış klassiklərin şeirlərindən və ümumiyyətlə dünya ədəbiyyatından xəbərləri yoxdur...**

Bu gün ədəbi tənqidin olmaması da payızdan sonra çoxalan göbələklər kimi, belə "şairlərin" artmasına səbəb olur. Məhz buna görə də yaxşı, istedadlı şairləri 3-4 milyonluq şairlərin arasından tapıb kəşf etmək və oxuculara tanıtmaq da çox çətin olur.

Bu gün ədəbiyyat aləmində öz yolu və öz dəsti-xətti olan şairlərdən biri də Lilpar Cəmşidqızıdır. Lilpar Cəmşidqızının yaradıcılığını bir müddətdir ki, izləyirəm. Onun bir-birindən maraqlı şeirləri, qəzəlləri və rübailəri mənim çox xoşuma gəlir. Ən çox xoşuma gələn isə Lilpar xanımın bir şairə kimi məhsuldar olması, öz yaradıcılığına ciddi yanaşması və yaradıcılıqda yeni fikirlər axtarmasıdır. Ən əsası isə Lilpar xanım öz yaradıcılığına qarşı çox ciddi olmaqla, həm də məhsuldardır. O, demək olar ki, hər gün yaradıcılıqla məşğul olur və yeni-yeni, bir-birindən maraqlı şeirlər, qəzəllər, rübailər yazır. Təkcə Azərbaycan ədəbiyyatının yox, həm də dünya ədəbiyyatının inciləri olan məhşur şairlərin yaradıcılığını diqqətlə oxuyur və onlardan özü üçün çox şeyləri əxz eləyir. Yenicə tamamladığı "Divan"ı bu şairəni doğrudan da az bir vaxtda Azərbaycan ədəbiyyatında məşhurlaşdıracaq. Çünki Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhminin həmin kitaba ön söz yazması və şairənin yaradıcılığını yüksək səviyyədə təhlil etməsi Lilpar Cəmşidqızının böyük istedadından xəbər verir.

Lilpar Cəmşidqızı lap gənclik illərindən bədii yaradıcılığa başlasa da, amma bir müddət ədəbiyyatdan uzaqlaşıb. 5-6 ildir ki, yaradıcılığa yenidən başlasa da bu illərdə çox məhsuldar işləməklə, az bir zamanda üç kitabı çap olunub. Bunlar "Tənhalıq içində əllər üşüyür" şeirlər kitabı, "Rübailər" kitabı və "Qəzəllər" kitablarıdır. "Tənhalıq içində əllər üşüyür" kitabına ön sözü mən yazmışam. Bu kitabdakı şeirlərdəki yeniliklər, şairənin heç kimin yaradıcılığını təkrar etməməsi, maraqlı tapıntıları, oxunaqlı şeirlər yazması çox xoşuma gəlib.

**Lilpar Cəmşidqızının təkcə Azərbaycan yox, dünya ədəbiyyatında olan tanınmış şairlərin yaradıcılığı ilə ciddi məşğul olması və onlardan çox şey öyrənməsi də onun yaradıcılığına müsbət təsir göstərir. Məhz buna görə çalışır ki, öz yaradıcılığında heç kimi təkrarlamasın. Artıq ömrünün qoşa beşinə gəlib çatan və öz dəsti-xətti olan Lilpar Cəmşidqızını biz də çoxminli oxucularımız adından təbrik edirik. Əlli beş illik ömrünə özü üçün töhfə etdiyi "Divan"ı inanırıq ki, sensasiya ilə qarşılanacaq. İndi isə onun Vətənlə, Qarabağla və Azərbaycan dövləti, dövlətçiliyi ilə bağlı bir neçə şeirini çoxminli oxucularımıza təqdim edirik.**

Ağalar İDRİSOĞLU,
Əməkdar incəsənət xadimi

*Lilpar CƏMŞİDQIZI*

## Ürəyim Vətən istədi

Çaylarında selə dönüm,
Bağçasında gülə dönüm,
Bir ovucluq külə dönüm,
Ürəyim Vətən istədi.

Sanki gəlib könül cuşa,
Qanadlanıb dönür quşa,
Həsrətliyəm dağa, daşa,
Ürəyim Vətən istədi.

Mən Vətənin öyündəyəm,
Dərdlərimin küyündəyəm,
Açılmamış düyündəyəm,
Ürəyim Vətən istədi.

Həm Arazam, həm də Kürəm,
Ürəklərdə qalan yerəm,
Bax, bu canı ona verəm,
Ürəyim Vətən istədi.

Bax, ürəyim qəm gölüdü,
Həm düzüdü, həm çölüdü,
Deməyin Lilpar ölüdü,
Ürəyim Vətən istədi.

## Qələbəni çalmışıq

Nə gözəl fəsildəyik,
Qarabağı almışıq,
Biz bu ilin sonunda,
Qələbəni çalmışıq.

Yağıları qovub biz,
Gözlərini ovub biz,
Qələbəylə bir də düz,
Şöhrətə ucalmışıq.

Yığıb veş-vüşün yağı,
Quruyub kökü, tağı,
Gələndə vida çağı,
Biz də yola salmışıq.

Çoxdu bizə yol verən,
Çoxdu bizə gül dərən,
Bizə kömək göndərən,
Gör nə günə qalmışıq.

Hələ ömür bitməyib,
Zəhmətimiz itməyib,
Vaxt, vədəmiz ötməyib,
Tanrıdan bac almışıq.

## Azərbaycan-Türkiyə

Yenə gedir yan-yana,
Azərbaycan, Türkiyə.
Qarışıbdı qan-qana,
Azərbaycan, Türkiyə.

Bir millətin oğluyuq,
Oğuz, Turan boyluyuq,
Biz müsəlman soyluyuq,
Azərbaycan, Türkiyə.

Dinimiz, imanımız,
Yenilməz gümanımız,
Torpaqdı bu canımız,
Azərbaycan, Türkiyə.

Harda var belə millət,
Harda var belə qeyrət,
Yenilməyən dəyanət,
Azərbaycan, Türkiyə.

Məmməd Əmin, Atatürk,
Birlikdədir daim türk.
Düşmənin biləyin bük,
Azərbaycan, Türkiyə.

Çəkilsin qatı duman,
Sağalsın daha yaran,
Birləşsin böyük Turan,
Azərbaycan, Türkiyə.

## Kəlbəcər

*(Bütün kəlbəcərli dostlara)*

Neçə ildi həsrət nəğməsi çalıb,
Naləli kamanım, tarım, Kəlbəcər.
Mənim oralarda xatirəm qalıb,
Bir də ki, dönməyən yarım, Kəlbəcər.

Quruyub kökündən köklü ağaclar,
Qorxudan yuvadan çıxmır turaclar.
Saralıb vədəsiz, vaxtsız yamaclar,
Bağbanım, ağacım, barım, Kəlbəcər.

Əsir düşən qız, gəlinlər çox oldu,
Dərdlərimiz, qəmlərimiz çoxaldı.
Ad-sanımız tapdalandı, yox oldu,
Namusum, ismətim, arım Kəlbəcər.

Yurd-yuvadan ayrı düşdük, o vaxtlar,
Söndü ürəklərdə arzular, baxtlar.
Dağıldı nə qədər binələr, taxtlar,
Uçanda tufağım, barım, Kəlbəcər.

Elə bilmə mən tükənib bitmişəm,
Ya yox olub, yer üzündən itmişəm.
Həsrətinlə bülbül olub ötmüşəm,
Ağaran başımda qarım, Kəlbəcər.

Yenə yaz gələndə gülər dağ, dərə,
Qırxbuğum, kəkotu çıxar düzlərə.
Açarsan qoynunu bir də bizlərə,
Tükənməz sərvətim, varım Kəlbəcər.

O zümrüd bulaqlar pıçhapıç axar,
Səmanda buludlar oynayar, çaxar.
Bulaqlar başından Lilparın baxar,
Çəkilsə yanımdan xarım, Kəlbəcər.

## Vətən mənì çağırır

Vətən məni çağırır,
Yol uzaqdı, gedirəm.
Vətənə bu canımı,
Mən də qurban edirəm.
Gətir çantamı, balam,
Bəlkə geri dönmədim.
Bilki Şəhid olsam da,
Mən əbədi sönmədim.
Bu Vətənin hər daşın,
Torpağını gəzəcəm.
Düşmənimin başını,
Bu torpaqda əzəcəm.
Anam süd verib mənə,
Halal etməz südünü.
Zəfər anın görməsəm,
Anam görər o günü.
Ey mənim qibləgahım,
Ey pirim, Məkkəm, Vətən.
Var yenilməz əsgərin,
Səni əyəmməz yetən.
Qələbə bizimlədir,
Qələbəmiz var olsun.
Tanrı Azərbaycanın,
Əsgərinə yar olsun.

## Əsgər, qayıt

Ay mənim dağ vüqarlım,
Ay mənim igidim, gəl.
Düşmənə göstər gücün,
Gözlərini ovub, dəl.
Balan səni gözləyir,
Tez qayıt, əsgər, qayıt.
Qələbə müjdəsini,
El-obaya yetir sən.
Qucağında Vətənin,
Torpağını gətir sən.
Balan səni gözləyir,
Tez qayıt, əsgər, qayıt.
Bu torpağın çörəyi,
Suyu halaldır sənə.
Azadlığı gətirdin,
Bu millətə, Vətənə.
Balan səni gözləyir,
Tez qayıt, əsgər, qayıt.

## Qarabağın

Güllə səslərindən batıb qulağı,
Qorxudan olubdu sısqa bulağı.
Düşmənin yurduma çoxdu marağı,
Qoyubdu önünə şərt, Qarabağın.

Müzəffər ordumuz öndə dayanıb,
Dağlarım, düzlərim qana boyanıb.
Millətim yuxudan artıq oyanıb,
Çəkir keşiyini mərd, Qarabağın.

Nə qədər Şəhidi görüb bu Vətən,
Saçını qaradan hörüb bu Vətən.
Bizə bata bilməz hər yoldan ötən,
Əyəmməz belini dərd, Qarabağın.

## Vətən, gözlərin aydın

İgidlər öz qanıyla suvarıbdı torpağı,
Ucalarda tutmuşuq o müqəddəs bayrağı
Düşmənə biz verməri k bircə quru yarpağı,
Zəfər günün yetişdi, Vətən, gözlərin aydın.

Azadlığın toxumun bu torpağa əkəndən,
Şəhidlərin nəşini bu bayrağa bükəndən,
Damla-damla qanları sinən üstə tökəndən,
Zəfər günün yetişdi, Vətən, gözlərin aydın.

Vüqarımız hər zaman o dağlardan ucadı,
Yaşın əsrlər keçib, milyon ildən qocadı.
Bayrağının üstündə igidliyin var adı,
Zəfər günün yetişdi, Vətən gözlərin aydın.